# Kredo

MÜBARİZƏSİDİR! TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA

Müstəqil ictimai-siyasi, publisistik qəzet №25 (1281) 19 sentyabr 2025-ci il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır


*Üzeyir HACIBƏYOV - 140*

# RUHLAR KOMPLEKSİ – DAHİ

**...Ölüm sevinməsin qoy! Ömrünü vermir bada**
**El qədrini canından daha əziz bilənlər**
**Şirin bir xatirətək qalacaqdır dünyada**
**Sevərək yaşayanlar, sevilərək ölənlər...**

**S.Vurğun**



İnsanın ölməzlik arzusu, ölümsüzlük uğrunda mübarizəsi, bəlkə də, insanın özünü insan kimi dərk etməsindən başlayır. Dirilik suyu ilə bağlı məşhur mifin yaranması da elə insanın ölümsüzlük axtarışı ilə bağlıdır.

İnsan öz mübarizəsilə arzuladığı ölümsüzlüyə qovuşa bilərmi? İskəndərin dirilik suyu arxasınca zülmətə qədər getməsi haqqındakı əfsanə bu mübarizənin puçluğu deyilmi?

Amma ölümsüzlük mümkündür. İnsanın ölümsüzlük uğrunda apardığı mübarizəsinin elə bu dünyada təsdiqi var.

Böyük Üzeyir bəyin (18 sentyabr 1885 - 23 noyabr 1948) ölümsüzlüyünü kim təsdiq eləmir ki?! Hətta elə ölümsüz insanlar var ki, onlar öz mübarizələrilə nəinki özlərinin ölümsüzlüyünü təmin etmiş olur, eləcə də bir çox başqalarının, ona tapınanların, onun fikir dünyasının yaşarılığı uğrunda mübarizə aparanların hamısına ölümsüzlük bəxş edir. Bunun üçün XX əsrdə Tanrının Azərbaycan xalqına bəxş elədiyi Üzeyir Hacıbəyovdan əvvəl kimsənin adını çəkmək olmaz. Üzeyir Hacıbəyovun özü qədər onun Koroğluları, Leyliləri, Məcnunları, Əsgər bəyləri, Gülçöhrələri, Məşədi İbadları... da ölümsüzdür, əbədiyaşarılıq haqqı qazanmış sənət ulduzlarıdır. Konkret olaraq bu adları öz ünvanları ilə sadalamağa lüzum yoxdur. Üzeyir Hacıbəyov dünyanın elə nadir sənətkarlarındandır ki, onun istedad işığı, onun haləsinə gələnlərin, onun işığına gələnlərin hamısını pərvanəyə çevirir, hamısını yandırır, hamısını şöləléndirir və bu işığı öz millətinin üstünə səpələyir.

Üzeyir bəyin dahi sənətkar adlandırılması yenilik deyil. Ölümsüzlük qazanmış bir dahi olaraq onun mənəvi aləminin çoxqatlılığı, zənginliyi və ən müxtəlif istiqamətlərdə mübarizələrdə müvəffəq olması onun dahiliyini şərtləndirən amillərdir. Bəlkə də, hər birimiz bir ruhun daşıyıcısıyıq. Ancaq Üzeyir bəy kimiləri bir neçə ruhun daşıyıcısıdır. Onun daxili aləminin nizamı ruhlar kompleksidir. Üzeyir bəy şəxsiyyəti və Üzeyir bəy istedadı. Tanrının ona bəxş etdiyi istedadın müxtəlif istiqamətləri - yazıçı, jurnalist, maarifçi və ən başlıcası bəstəkar. Ayrı-ayrı insanların, bəlkə də qrupların, dəstələrin, zaman baxımından bütöv bir nəslin görə biləcəyi işlərin öhdəsindən ancaq Üzeyir bəy kimi dahi gələ bilərdi. Bu mənada, Üzeyir bəy şəxsiyyətinin özündə çoxlu ruhlar cəmlənmiş və bütöv bir ahəngdar sistem yaranmışdır.

Zənnimizcə, Üzeyir bəyin təkcə "Üvertura"sı sivil cəmiyyətə doğru, dünya mədəniyyətinə qovuşmağa doğru gedən Azərbaycan musiqisinin başlanğıcıdır. Xalqın minillik tarixindən su içən, muğamından, xalq musiqisindən qidalanan Üzeyir Hacıbəyov sənəti min illər sonra da ayrıca intibah mərhələsi kimi dəyərləndiriləcək, öyrəniləcəkdir.

Üzeyir bəy sənətində onun mənsub olduğu xalqın təfəkkürü, xalqın mənəvi qüdrəti təsdiq olunur.

Dahilik ruhlar kompleksidir.

*Əli Rza XƏLƏFLİ*